

İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

# İXRAC İCMALI

Noyabr 2018

iqtisadiislahat.org
info@ereforms.org

**AZEXPORT.AZ**
**Made in Azerbaijan**

# “BİZ MƏHSULLARIMIZI BELARUS BAZARINA ÇIXARMAQ NİYYƏTİNDƏYİK”

Azərbaycan Respublikasının Prezidenti
cənab İLHAM ƏLİYEVİN
2018-ci il 19 noyabr tarixində Belarus Respublikasında
sənədlərin imzalanması mərasimindən sonra
mətbuata verdiyi bəyanatından



“Mən bu gün səhər Azərbaycan Ticarət Evinə baş çəkdim. Deməzdim, təəccübləndim, amma sevindim ki, belə gözəl yerdə, şəhərin mərkəzində Azərbaycanın yaraşıqlı guşəsi yaradılıb və orada bizim nailiyyətlərimiz Belarus vətəndaşlarına nümayiş etdiriləcək. Həmçinin mənə dedilər ki, bizim məhsullarımız artıq Belarus bazarına çıxıb və onlara yaxşı tələbat var. Biz bu baxımdan belaruslulardan geri qalmışıq. Artıq Bakıda yüksək keyfiyyətli və bizim vətəndaşlar arasında çox məşhur olan Belarus məhsullarını satan yeddi ticarət müəssisəsi mövcuddur. Biz məhsullarımızı Belarus bazarına çıxarmaq niyyətindəyik.

Düşünürəm ki, bu, həm bizim ikitərəfli ticari-iqtisadi əlaqələrimizi möhkəmləndirəcək, həm də bir-birimizin imkanlarını daha çox nümayiş etdirəcək”.

# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 11

Azexport.az portalına 2018-ci ilin yanvar-oktyabr aylarında 433 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur — səh. 17

Azexport.az portalı yun ixracının artmasına töhfə verir — səh. 21

Elektron ticarət üzrə təlim yekunlaşmışdır — səh. 22

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzi ixracatçıların xidmətindədir — səh. 23

“İxrac əməliyyatlarında maliyyə dəstəyi” mövzusunda təlim keçirilmişdir — səh. 26

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2018-ci ilin **YANVAR-OKTYABR AYLARINDA** qeyri-neft sektoru üzrə **1** milyard **351** milyon ABŞ dolları dəyərində mal **İXRAC OLUNMUŞDUR**

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac **132** milyon ABŞ dolları və ya **11%** **ARTMIŞDIR**

2018-ci ilin yanvar-oktyabr ayları ərzində Azərbaycan Respublikasının ixracı **16 milyard** ABŞ dolları təşkil etmişdir. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən bu müddətdə Azərbaycan Respublikasında qeyri-neft sektoru üzrə ixracda dinamik artım müşahidə olunmuş və cari ilin 10 ayı ərzində qeyri-neft sektoru üzrə ixrac **1 milyard 351 milyon** ABŞ dolları təşkil etmişdir. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-oktyabr ayları ərzində qeyri-neft sektoru üzrə ixrac **132 milyon** ABŞ dolları və ya **11 faiz** artmışdır. Cari ilin yanvar-oktyabr ayları ərzində Rusiyaya **467,1 milyon**, Türkiyəyə **293,8 milyon**, İsveçrəyə **114,4 milyon**, Gürcüstana **106,5 milyon** və Qazaxıstana **38,4 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunmuşdur.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin 10 ayı ərzində Rusiyaya qeyri-neft ixracı **10 faiz**, Türkiyəyə **21 faiz**, Qazaxıstana **48 faiz** artmış, İsveçrəyə **1 faiz**, Gürcüstana isə **1, 4 faiz** azalmışdır.

2018-ci ilin yanvar-oktyabr ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında **pomidor** (149,9 milyon ABŞ dolları) birinci, **qızıl** (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda – 99,9 milyon ABŞ dolları) ikinci olmuşdur. Xüsusi kütləsi 0,94-dən az olan **ilkin formalı polietilen** isə (68,5 milyon ABŞ dolları) bu siyahıda üçüncü yerdə qərarlaşmışdır.

Cari ilin yanvar-oktyabr aylarında qabığı təmizlənmiş meşə fındığı, pambıq lifi (daranmaya məruz qalmamış), elektrik enerjisi, emal olunmamış aşqarlanmamış alüminium, xurma, albalı və gilas da qeyri-neft ixracında mühüm paya sahib olmuşlar.

Ümumiyyətlə, 2018-ci ilin yanvar-oktyabr ayları ərzində meyvə-tərəvəz ixracı **405,5 milyon**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **103,6 milyon**, alüminium və ondan hazırlanan məmulatların ixracı **102,7 milyon**, elektrik enerjisinin ixracı **59,6 milyon**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **72,2 milyon**, pambıq lifi ixracı **64,5 milyon**, kimya sənayesi məhsullarının ixracı **63,9 milyon**, pambıq ipliyi ixracı **19 milyon** ABŞ dolları təşkil etmişdir. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin 10 ayında pambıq lifinin ixracı **2,3 dəfə**, elektrik enerjisinin ixracı **60 faiz**, pambıq ipliyinin ixracı **41 faiz**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **28 faiz**, meyvə-tərəvəzin ixracı **8 faiz**, alüminium və ondan hazırlanan məmulatların ixracı **5 faiz**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **5 faiz** artmışdır.

2018-ci ilin oktyabr ayında isə qeyri-neft sektoru üzrə ixrac 144 milyon ABŞ dolları təşkil etmişdir. 2018-ci ilin oktyabr ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısına Rusiya (64,9 milyon ABŞ dolları) başlıq etmişdir. Daha sonra bu siyahıda Türkiyənin (18,2 milyon ABŞ dolları), İsveçrənin (9,2 milyon ABŞ dolları), Gürcüstanın (9,1 milyon ABŞ dolları), Ukraynanın (7,3 milyon ABŞ dolları) və digər ölkələrin adları var.

Cari ilin oktyabr ayında qeyri-neft sektoru üzrə ixracda **xurma** (23,3 milyon ABŞ dolları) birinciliyi ələ almışdır. Qabığı təmizlənmiş **meşə fındığı** (13,3 milyon ABŞ dolları) ilə **alma** (7 milyon ABŞ dolları) isə ikinci və üçüncü yerləri bölüşmüşlər.

Həmçinin 2018-ci ilin oktyabr ayında qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda), təzə meyvələr, tomat, metanol (metil spirti), polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr, xiyar və kornişonlar qeyri-neft sektoru üzrə ixracda önə çıxmışdır.

2018-ci ilin yanvar-oktyabr ayları ərzində ixrac olunan əsas malların siyahısı və əsas ixrac ölkələri barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikalarda verilmişdir.

MADE IN AZERBAIJAN

# 2018-Cİ İLİN **YANVAR-OKTYABR AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
**(2017-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



## 2018-Cİ İLİN **OKTYABR AYINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
**(2017-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



# 2018-Cİ İLİN **YANVAR-OKTYABR AYLARINDA** 2017-Cİ İLİN MÜVAFİQ DÖVRÜNƏ NİSBƏTƏN QEYRİ-NEFT SEKTORUNA AİD BƏZİ MALLARIN **İXRACININ ARTIMI**
**(Dəyəri milyon ABŞ dolları ilə)**



# AZƏRBAYCAN RESPUBLİKASINDAN İXRAC EDİLƏN BƏZİ MALLARIN **DÜNYA BAZARINDA QİYMƏTİ** (ABŞ dolları ilə)









| 2017-ci il Oktyabr ayı | | 2018-ci il Oktyabr ayı |
|---|---|---|
| 1280 | QIZIL (1 UNSİYA) ↓ | 1215 |
| 1730 | PAMBIQ LİFİ (1 TON) ↑ | 1910 |
| 2131 | ALÜMİNİUM (1 TON) ↓ | 2030 |
| 3290 | ÇAY (1 TON) ↓ | 2660 |
| 320 | ŞƏKƏR (1 TON) ↓ | 290 |

Mənbə: Dünya Bankı

# 2018-Cİ İLİN **YANVAR-OKTYABR AYLARINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

**(2017-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

| | 2018 | 2017 |
|---|---|---|
| Pomidor | 149,9 | 131,5 |
| Qızıl | 99,9 | 98,4 |
| İlkin formalı polietilen | 68,5 | 59,5 |
| Fındıq ləpəsi | 65,7 | 88,6 |
| Mahlıc | 63,8 | 27,2 |
| Elektrik enerjisi | 59,6 | 37,3 |
| Emal olunmamış aşqarlanmamış alüminium | 46,3 | 21,8 |
| Xurma | 43,9 | 30,2 |
| Albalı və gilas | 38 | 23,2 |
| Digər | 715 | 701 |

# 2018-Cİ İLİN **OKTYABR AYINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
**(2017-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2018 İXRAC İCMALI NOYABR



# 2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ



## 2018-ci ilin **YANVAR-OKTYABR AYLARINDA** qeyri-neft sektoru üzrə **ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ**

"İxrac İcmalı" tərəfindən qeyri-neft sektoru üzrə 2018-ci ilin yanvar-oktyabr aylarında həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

2018-ci ilin yanvar-oktyabr ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı subyektlər təmsil olunurlar: "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "MKT İstehsalat Kommersiya" MMC, "Kapitan Fruits" MMC, "Baku Steel Company" MMC, "Azfruittrade" MMC, "Food Export Şəmkir" MMC, "Qala meyvə-tərəvəz ixracat idxalat" MMC, "Sun Food" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Ram Beynəlxalq Nəqliyyat və Ticarət Ltd" MMC.

Qeyd edək ki, 2018-ci ilin yanvar-sentyabr ayları üzrə tərtib edilən reytinqlə müqayisədə bu dəfəki siyahıda "Ram Beynəlxalq Nəqliyyat və Ticarət Ltd" MMC-də təmsil olunmaq şansı qazanmışdır.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-nin "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Det-al Alüminium" MMC, "Azərenerji" ATSC, "Azergold" QSC, "Azərbaycan Hava Yolları" QSC, "SOCAR Methanol" MMC, "CTS-Agro" MMC, "Ərzaq Məhsullarının Tədarükü və Təchizatı" ASC, Naxçıvan MR Dövlət Energetika Xidməti, "Suraxanı Maşınqayırma Zavodu Törəmə" ASC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



# 2018-Cİ İLİN YANVAR-OKTYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (2017-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2018-Cİ İLİN **YANVAR-OKTYABR AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **DÖVLƏTƏ MƏXSUS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (2017-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**

2018 İXRAC İCMALI NOYABR



# 2018-Cİ İLİN YANVAR-OKTYABR AYLARINDA "AZƏRKOSMOS" ASC 22,4 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR





2018-ci ilin yanvar-oktyabr aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın **23 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir.

"Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **88 faizini** təşkil etmişdir. 2018-ci ilin oktyabr ayında isə "Azərkosmos" ASC dünyanın **17 ölkəsinə 5,7 milyon** ABŞ dolları dəyərində xidmət ixrac etmişdir.

2018-ci ilin yanvar-oktyabr aylarında "Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə** (ABŞ dolları ilə)





2018-ci ilin **YANVAR-OKTYABR AYLARINDA** Azərbaycana gələn xarici vətəndaşlar **BANK KARTLARI VASİTƏSİ İLƏ** **1 119** milyon manatlıq əməliyyat aparmışlar

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə xarici vətəndaşların **BANK KARTLARI VASİTƏSİ** ilə apardıqları əməliyyatların dəyəri **248** milyon manat və ya **28%** **ARTMIŞDIR**

2018-ci ilin yanvar-oktyabr ayları ərzində Azərbaycana dünyanın 194 ölkəsindən 2 420,4 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,1 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən gələnlərin 31,1 faizi Rusiya Federasiyası, 20,2 faizi Gürcüstan, 10,1 faizi Türkiyə, 8,9 faizi İran, 3,2 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,8 faizi Səudiyyə Ərəbistanı, 2,6 faizi İraq, 2,0 faizi Ukrayna, 1,6 faizi İsrail, 17,4 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur. Əcnəbi və vətəndaşlığı olmayan şəxslərin 7,7 faizi yanvar, 6,9 faizi fevral, 11,4 faizi mart, 9,0 faizi aprel, 8,6 faizi may, 11,1 faizi iyun, 13,6 faizi iyul, 13,3 faizi avqust, 9,6 faizi sentyabr, 8,8 faizi isə oktyabr ayında ölkəyə gəlmişdir.

Cari ilin yanvar-oktyabr aylarında ölkəmizə gələn Bəhreyn və Səudiyyə Ərəbistanı vətəndaşlarının sayı 2,2 dəfə, Küveyt vətəndaşlarının sayı 2 dəfə, Qətər vətəndaşlarının sayı 1,6 dəfə, İraq vətəndaşlarının sayı 13,7 faiz, Oman vətəndaşlarının sayı 6,3 faiz artmışdır. 2018-ci ilin yanvar-oktyabr aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 8,3 faiz artaraq 99,4 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 4,1 faiz artaraq 891 min nəfər olmuşdur.

2018-ci ildə ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə xərcləmələrində də artım müşahidə edilmişdir. Belə ki, 2018-ci ilin yanvar-oktyabr ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri **1 119,3 milyon** manat təşkil etmişdir. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-oktyabr ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri **248 milyon** manat və ya **28 faiz** artmışdır.

Cari ilin oktyabr ayında ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatları **117 milyon** manat təşkil etmiş və ötən ilin oktyabr ayı ilə müqayisədə **57 faiz** artmışdır.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN **BANK KARTLARI VASİTƏSİ İLƏ** APARDIQLARI ƏMƏLİYYATLAR **(milyon manatla)**

İXRAC İCMALI 2018 NOYABR

## 2016-cı il

Yanvar - **28,2**
Fevral - **36,7**
Mart - **40,6**
Aprel - **34,5**
May - **48,6**
İyun - **74,8**
İyul - **40,9**
Avqust - **52,5**
Sentyabr - **56,8**
Oktyabr - **52,5**

**CƏMİ - 466,1**

## 2017-ci il

Yanvar - **86,8**
Fevral - **72,5**
Mart - **91,1**
Aprel - **80,6**
May - **92,6**
İyun - **83,8**
İyul - **95,7**
Avqust - **100,8**
Sentyabr - **93,2**
Oktyabr - **74,4**

**CƏMİ - 871,5**

## 2018-ci il

Yanvar - **99,8**
Fevral - **91,1**
Mart - **105,8**
Aprel - **109,7**
May - **107,3**
İyun - **106,7**
İyul - **126,3**
Avqust - **141,0**
Sentyabr - **114,6**
Oktyabr - **117**

**CƏMİ - 1 119,3**

# 3

# AZEXPORT.AZ PORTALINA 2018-Cİ İLİN YANVAR-OKTYABR AYLARINDA 433 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

Cari ilin **OKTYABR AYINDA** Azexport.az portalına daxil olan **İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ** **23** milyon ABŞ dolları təşkil etmişdir

2018-ci ilin yanvar-oktyabr aylarına Azexport.az portalına 433 milyon ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olmuşdur. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-oktyabr aylarında Azexport.az portalına daxil olan ixrac sifarişləri dəyər baxımından 10 faiz artmışdır. Cari ilin oktyabr ayı ərzində isə Azexport.az portalına daxil olan sifarişlərin dəyəri **23 milyon** ABŞ dolları təşkil etmişdir.

2018-ci ilin 10 ayında portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində isə Rusiya (18,3%), ABŞ (8,5%), Türkiyə (5,8%), Hindistan (4,4%) və İran (4,1%) qərarlaşmışdır.

Daxil olan sifarişləri məhsullar üzrə təhlil etdikdə məlum olmuşdur ki, cari ilin oktyabr ayında ən çox ixrac sifarişi xiyar, pomidor, soğan, yerkökü, fındıq, pambıq, pampıq yağı, bal, şərab, tütün, nar şirəsi, göbələk, nar, kartof, yun, çay, ipək xalça, konservləşdirilmiş tərəvəzlər, mühərrik yağı, kərə yağı, tikinti materialları, mebel dəsti, metal məhsullar, şokolad yağı, zəfəran, meyvə şirəsi, dondurulmuş toyuq, qənnadı məhsulları, buğda kəpəyi, xurma qurusu, konservləşdirilmiş ət, kələm, feyxoa cemi, tibbi tənzif, mineral su və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2018-ci ilin 31 oktyabr tarixinə kimi (22 ay ərzində) Azexport.az portalına dünyanın 108 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri **908 milyon** ABŞ dolları təşkil etmişdir.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

## **AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ **(ABŞ dolları ilə)**

**2017-ci il ərzində**

**CƏMİ - 475 milyon**




**2018-ci il üzrə**

YANVAR - 81,5 milyon

FEVRAL - 37,6 milyon

MART - 66,5 milyon

APREL - 36,9 milyon

MAY - 27,7 milyon

İYUN - 34,2 milyon

İYUL - 31,1 milyon

AVQUST - 51,5 milyon

SENTYABR - 43 milyon

OKTYABR - 23 milyon

**CƏMİ** - **433 milyon**



Son **22 ay** ərzindəki sifarişlərin cəmi - **908 milyon**

# 2018-Cİ İLİN **OKTYABR AYINDA AZEXPORT.AZ** PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

Xiyar



Pomidor



Soğan



Yerkökü



Fındıq



Pambıq



Pampıq yağı



Bal



Şərab



Tütün



Nar şirəsi



Göbələk



Nar



Kartof



Yun



## 2018-Cİ İLİN **YANVAR-OKTYABR AYLARINDA AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN **ƏSAS İXRAC SİFARİŞLƏRİNİN ÖLKƏLƏR** ÜZRƏ BÖLGÜSÜ

2018 İXRAC İCMALI NOYABR



4

# AZEXPORT.AZ PORTALI YUN İXRACININ ARTMASINA TÖHFƏ VERİR

Son illər Azərbaycan Respublikasında yun istehsalı artsa da, onun ixracı ilə bağlı müəyyən problemlər qalmaqdadır. Belə ki, 2014-cü və 2015-ci illərdə Azərbaycan Respublikasından qoyun yunu ixrac edilməmişdir. 2016-cı ildə isə ölkəmizdən 95,2 min ABŞ dolları dəyərində yuyulmuş, karbonlaşdırılmamış qırxılmış qoyun yunu (HS kodu 510121) ixrac edilmişdir. 2017-ci ildə isə yuyulmuş, karbonlaşdırılmamış qırxılmış qoyun yununun ixracı 12 faiz artaraq 107 min ABŞ dolları təşkil etmişdir. Həmçinin, 2017-ci ildə 14 min ABŞ dolları dəyərində yuyulmamış qırxılmış qoyun yunu ixrac edilmişdir.

Dövlət Statistika Komitəsinin məlumatından aydın olur ki, 2017-ci ildə yuyulmuş, karbonlaşdırılmamış qırxılmış qoyun yunu Çin Xalq Respublikasına ixrac edilmişdir. Azexport.az portalı isə ölkəmizdən qoyun yunu ixracının həm həcminin artmasına, həm də ixrac coğrafiyasının genişlənməsinə töhfə verir. Belə ki, Zaqatala rayonundan olan sahibkar Əlihüseyn Şirinli Azexport.az portalından daxil olan ixrac sifarişini reallaşdıraraq bu il Rusiya bazarına 60 ton qoyun yunu ixrac etmişdir. Sahibkar ona bu imkanı yaratdığı üçün Azexport.az portalına öz minnətdarlığını bildirmişdir.

Qeyd edək ki, son 5 ildə Azərbaycandan Rusiyaya iri həcmdə yun ixracı reallaşmamışdır. Azexport.az portalının fəaliyyəti nəticəsində sahibkarlar cari ildən etibarən bu sahədə potensialı reallaşdırmağa başlamışlar.





5

# ELEKTRON TİCARƏT ÜZRƏ TƏLİM YEKUNLAŞMIŞDIR

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Azexport.az portalının Beynəlxalq Ticarət Mərkəzi (İTC) ilə birgə "Elektron Ticarət" və "İxrac prosedurları" mövzuları üzrə təşkil etdiyi təlim yekunlaşmışdır. Təlimdə özəl və dövlət qurumlarının 40-dan artıq əməkdaşı iştirak etmişdir. Təlim interaktiv aparıldığı üçün müzakirələr fərqli qruplar üzrə ardıcıl 5 gün davam etmişdir. İTC-nin ekspertləri Mohamed Es Fih və Eldar Adilzadə təlim zamanı iştirakçılara informasiya sistemlərindən istifadə etməklə malların alqı-satqısı, xidmətlərin göstərilməsi və işlərin görülməsi üzrə mərhələlər barədə ətraflı məlumatlar təqdim etmişlər.

Təlimin sonunda iştirakçılara İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Azexport.az portalı və İTC tərəfindən sertifikatlar təqdim olunmuşdur.

Qeyd edək ki, Azexport.az portalına daxil olan sifarişlərin idarə edilməsi və sahibkarların elektron ticarət biliklərinin artırılması məqsədi ilə müntəzəm olaraq belə təlimlər təşkil edilir.





# 6

# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ İXRACATÇILARIN XİDMƏTİNDƏDİR

2018-ci ilin noyabr ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi tərəfindən ixracatçılara 300-dən çox sertifikat verilmişdir. Cari ilin noyabr ayında Azərbaycan sahibkarlarının “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsi ilə həyata keçirdikləri ixracın dəyəri **11,8 milyon** ABŞ dolları təşkil etmişdir.

Respublikamızda fəaliyyət göstərən fiziki və hüquqi şəxslərə (“Baku Steel Company”, “Food Export Şəmkir” MMC, “AZNAR” MMC, “SEN-İnşaat” MMC və s.) əsasən polad borular, polad pəstah, xurma, meyvə şirələri, arpa, biyan, nar, soğan, qiymətli metal, qoyun əti, toyuq ayaqları, ayaqqabı altlıqları, pambıq tullantısı, süd məhsulları, ting, dini təyinatlı ədəbiyyat, at və s. məhsulların ixracı üçün lazım olan müvafiq sənədlər təqdim edilmişdir. Sertifikat verilən məhsullar Rusiya, Türkiyə, Ukrayna, Gürcüstan, Qazaxıstan, İsveçrə, İtaliya, İran, Polşa, Çin, Çex Respublikası, Estoniya, Almaniya, Moldova, İraq, Özbəkistan, Tacikistan, Koreya, İsrail və Malayziya daxil olmaqla dünyanın müxtəlif ölkələrinə ixrac olunmuşdur.

Qeyd edək ki, 2018-ci ilin yanvar-noyabr aylarında “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsi ilə həyata keçirilən ixracın dəyəri **138,8 milyon**



# 2018-Cİ İLİN YANVAR - NOYABR AYLARINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI (milyon ABŞ dolları ilə)




2018-ci ilin yanvar - noyabr aylarında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə ixrac edilən məhsulların ümumi qeyri-neft sektoru üzrə ixracda payı **10 faiz** təşkil etmişdir



# 2018-Cİ İLİN **NOYABR AYINDA "BİR PƏNCƏRƏ"** İXRACA DƏSTƏK MƏRKƏZİNİN TƏQDİM ETDİYİ **SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ**



7

# "İXRAC ƏMƏLİYYATLARINDA MALİYYƏ DƏSTƏYİ" MÖVZUSUNDA TƏLİM KEÇİRİLMİŞDİR

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi Kapital Bankla birgə "İxrac əməliyyatlarında maliyyə dəstəyi" mövzusunda təlim keçirmişdir. Maarifləndirmə xarakteri daşıyan təlim zamanı iştirakçılara nəzəri məlumatlar verilmiş və maliyyə dəstəyindən praktiki istifadə qaydalarından bəhs edilmişdir. Tədbir çərçivəsində xarici ticarətdə maliyyə alətlərinin rolu, ixrac zamanı avans ödənişləri, akkreditiv, faktorinq, qarantiyalar, ixrac fəaliyyətinə yönəlik kreditlər və digər mövzularla bağlı sahibkarlara ətraflı məlumat verilmişdir.

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin meneceri bildirmişdir ki, Azərbaycanda xarici ticarət əməliyyatlarında önəmə malik olan ixrac kreditləri, akkreditiv və faktorinq kimi maliyyə alətlərinin ixracatçılar tərəfindən istifadəsinə geniş imkanlar vardır.

Kapital Bankın baş direktoru F. Hidayətzadə isə əlavə etmişdir ki, son illər ölkə başçısının rəhbərliyi ilə qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində çox uğurlu addımlar atılmışdır: "Dövlət dəstəyi ilə görülən tədbirlər çərçivəsində ölkə iqtisadiyyatının inkişafına xüsusi diqqət ayrılır. Bütün bu faktorlar ölkəmizin ixrac potensialının artmasına öz töhfəsini verir, daxili istehsalın dünya bazarında rəqabət qabiliyyətinin güclənməsinə səbəb olur. Məhz buna görə də ölkəmizdə ixracatçı sahibkarların sayı günü-gündən artır. Kapital Bank da bu inkişafa töhfə vermək məqsədi ilə beynəlxalq iqtisadi şəraiti çevik dəyərləndirərək, ixracatçılar üçün təhlükəsiz, səmərəli şərait yaratmaq üçün yeni məhsullar hazırlayır."

Qeyd edək ki, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi mütəmadi ixracatçı sahibkarlar üçün belə təlimlər təşkil edir.






## Bolqarıstana və Almaniyaya ixrac missiyası təşkil olunmuşdur

Cari ilin noyabr ayında "Made in Azerbaijan" brendinin təşviqi məqsədi ilə İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Bolqarıstana ixrac missiyası həyata keçirilmişdir.

Qida məhsulları, şərab və digər spirtli içkilər istehsalı sahəsində fəaliyyət göstərən Azərbaycan şirkətləri distributor, idxalçı və topdansatış şirkətləri ilə ikitərəfli görüşlər keçirmiş, "Interfood & Drink" sərgisində, bir sıra iri marketlərdə olmuşdurlar.

Azərbaycan məhsulları Bolqarıstan şirkətləri tərəfindən maraqla qarşılanmışdır. Belə ki, Azərbaycanın "Kaslar" MMC şirkəti ilə Bolqarıstanın "Stil Agro" LTD, "My Day" LLC və "KaPousouz" şirkətləri arasında fındığın ixracına dair ilkin razılıq əldə olunmuşdur.

Azərbaycanın "Tac" MMC (Aquavita) şirkəti ilə Bolqarıstanın distribütor şirkətləri arasında limonadların ixracına dair müzakirələr aparılmışdır. Azərbaycanın "Banu Organic" MMC, "Ayan" MMC, "Sun Food" MMC şirkətlərinin istehsal etdikləri məhsulların ixracına dair bolqar şirkətləri ilə razılığa gəlinmişdir.

İxrac missiyası çərçivəsində, həmçinin "Şirin Aqro" MMC ilə Bolqarıstanın "Kafkas" şirkəti arasında müxtəlif növ meyvə və tərəvəzin böyük həcmdə ixracına dair müzakirələr aparılmış, "Az-Granata" MMC nar şirəsinin Bolqarıstanın "Metro" supermatketlərində yerləşdirilməsinə dair razılıq əldə etmişdir.

Qeyd edək ki, cari ilin 27-30 noyabr tarixlərində həm də Almaniya Ferderativ Respublikasının Berlin şəhərinə ixrac missiyası təşkil olunmuşdur. İxrac missiyasında qida məhsulları, tekstil və mebel sənayesi sahələrində fəaliyyət göstərən 28 yerli şirkət iştirak etmişdir.

## Azərbaycan şərabları Çində "Prowine China" beynəlxalq şərab sərgisində nümayiş edilmişdir

İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Azərbaycanda istehsal olunan şərab və digər spirtli içki məhsulları Çin Xalq Respublikasının Şanxay şəhərində təşkil olunmuş "Prowine China" beynəlxalq şərab sərgisində nümayiş olunmuşdur. Vahid ölkə stendində təqdim olunan 120 çeşiddən çox şərab və digər spirtli içkilər sərgi ziyarətçiləri və xarici şirkətlər tərəfindən böyük maraqla qarşılanmışdır.

"Azəri" MMC Çin Xalq Respublikasının Şanxay şəhərində fəaliyyət göstərən şirkətlə 3 milyon ABŞ dolları dəyərində spirtli içkilərin ixracına dair müqavilə bağlamışdır. Azərbaycanın "A+Co", "Cəlilabad Şərab-2", "Tovuz Baltiya", "Merit-Brand", "Şərq Ulduzu", "Aspi-Aqro", "Gəncə Şərab-2", "Fireland" şirkətləri istehsal etdikləri məhsulların ixracına dair danışıqlar aparmışdırlar.

"Şirvan" şirkətinin istehsal etdiyi məhsullar Yaponiya və Çindən olan şirkətlərin marağına səbəb olmuş və sözügedən şirkətlərin məhsullarının bu ölkələrə ixracına dair ilkin razılığa gəlinmişdir.





**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**


AZ 1073, Bakı ş., Yasamal r., Landau küç., 16
16, Landau str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Ландау, 16

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az
/iqtisadiislahat
/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi








Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.



iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org